# Balakən: tərəqqini yaradan əllərin təntənəsi

❒ *… Mən həmişə qəzetin və jurnalın radio və televiziyadan üstün olduğunu söyləyib, sözümü sübut etmişəm. Amma indi – təxminən 40 il yazılı mətbuatda çalışandan sonra etiraf etməli oldum ki, elektron mətbuatda salışan həmkarlarımızın öz fikirlərini, məqsədlərini tamaşaçıya, dinləyiciyə çatdırması üçün imkanları daha böyükdür. Məsələn, mən indi bu yazının girişi üçün qələmə almaq istədiyim iki xatirənin mahiyyətini və həmin xatirələrin beynimdə canlandığı tədbirin aktuallığını xatırlatmaq üçün xeyli sözdən, yazıdan istifadə etməli oluram. Amma televiziyada çalışan hansısa səriştəli həmkarımız bu məqamları daha tez, müfəssəl və təsiredici şəkildə təqdim edə bilərdi.*





… Birinci xatirə. Hələ tələbə olduğumuz illərdə "Komsomolskaya Pravda" qəzetinin əslən Orta Asiyadan olan bir müxbiri Qazaxıstandan hazırladığı məqaləyə belə bir sərlövhə vermişdi: "Əllər". Müəllif yazıya bir əli ilə musiqini "tutmaq"istəyən , o biri əli ilə qaçış xəttindəki təranələrin yürüməsinə start verən dirijorun əllərindən başlayır, 45 il kənd məktəbində çalışmış müəllimin əlinə düşən qırışların hər birini bir şagirdin həyat yolunun başlanğıcı kimi görür və nəhayət, səhranın ortasında ağappaq pambıq dağı yaradan kəndli qadının əlini təzim edilməli ünvan adlandırırdı. O zaman həmin məqaləni hamımız bəyənmişdik və hərəmiz hansısa yazıda məhz buna bənzər forma axtarmağa çalışmışdıq.

… İkinci xatirə. Təcrübəli həmkarımız Asif Quliyevlə söhbətlərimizin birində yuxarıda adını çəkdiyim məqaləni yada salanda o da bununla bağlı bir xatirə danışmışdı.. Deyirdi ki, Balakəndəki Sosialist Əməyi Qəhrəmanlarından biri, sonralar kolxoz sədri vəzifəsinə qədər yüksəlmiş Nəfisət Novruzova haqqında oçerk yazmalı idim. Müsahibə zamanı hiss edirdim ki, həmsöhbətim əlini məndən gizlədir. Səbəbini soruşmağa ehtiyac yox idi. Bilirdim ki, tütün yarpağı dərilərkən bitkinin gövdəsindən dərhal su çıxır və həmin su əldə quruyanda bərkiyir. Nəfisət xanım məhz həmin səbəbdən əlini məndən gizlədirdi. Dedim əlinizi gizlətməyin. Sizi Balakənin 18 Əmək Qəhrəmanından birinə çevirən, respublikanın ən hörmətli adamlarından biri edən məhz həmin əllərdir. O əllər qaraldıqca, sizin də üzünüz ağarıb, kəndinizin də, rayonunuzun da…Və o vaxtlar Nəfisət xanım haqqında yazılan oçerkin adı "Əllərin şöhrəti" idi.

… Və nəhayət, qayıdaq mətləb üstünə. Noyabrın 1-də Balakəndəki Heydər Əliyev Mərkəzində kənd təsərrüfatı işçilərinin peşə bayramı qeyd olunurdu. Toplantıda rayon icra hakimiyyətinin başçısı İslam Rzayev, kənd təsərrüfatı işçiləri, bələdiyyə sədrləri, fermerlər və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Rayon rəhbəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində ölkəmizdə ərzaq bolluğu yaradılması istiqamətində görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışdı, Balakən rayonunda bu sahədə həyata keçirilən layihələri diqqətə çatdırdı. Xüsusilə, son illərdə ölkəmizdə qeyri -neft sektorunun inkişafı ilə əlaqədar qarşıya qoyulmuş məqsədlərdən və bu sahədə məşğul olan hər bir kəsin üzərinə böyük məsuliyyətin düşdüyündən söhbət açan İslam müəllim sadə kənd adamları, əkin-biçinlə məşğul olan balakənlilər haqqında elə məhəbbət, sevgi, hörmət və ehtiramla danışdı ki, mən 30-40 il əvvəlki iki xatirənin təəssüratını yenidən yaşadım və elə oradaca qərara gəldim ki, Balakənin bugünkü uğurları barədə hazırlayacağım növbəti qəzet materiallarını məhz həmin məqamlarla başlayacağam və başladım.



Xatırladım ki, bu rayonda haqqında söz açılmalı, halal çörək qazanan, əli ilə üzünü ağardan insanlar istənilən qədərdir. Nə yaxşı ki, dövlətimiz və dövlət qurumlarımız bu qəbildən olan soydaşlarımızın qədrini bilir, onların fəaliyyətinin daha da stimullaşdırılması üçün kifayət qədər layihələr reallaşdırılır. Elə layihələrin birində mən də iştirak edirdim. Cəmi bir neçə gün əvvəl – noyabrın 4-də rayondakı "Qubek" otelində Ailə Biznesinə Asan Dəstək (ABAD) layihəsinin təqdimat mərasimi keçirilirdi. Sahibkarların, fermerlərin, ABAD layihəsindən yararlanmaq istəyən ailələrin dəvət olunduğu tədbirdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov iştirak edirdilər.

Qonaqlar əvvəlcə əl işləri və ayrı-ayrı ailələr tərəfindən hazırlanmış məhsullardan ibarət sərgiyə baxdılar.

Təqdimat mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı İslam Rzayev qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il sentyabrın 23-də "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzlərinin yaradılması ilə bağlı fərman imzalayıb. Ailə Biznesinə Asan Dəstək mərkəzlərinin yaradılmasında əsas məqsəd Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaqdır.

Layihə haqqında məlumat verən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov bildirdi ki, bu layihə çərçivəsində kənd təsərrüfatı, əl işi və sənətkarlıq sahələrində ailə bizneslərinin, brendlərinin formalaşdırılmasına maddi və texniki yardım olunacaq. Bu layihənin icrası ilə Azərbaycanda təşəkkül tapmış və dünya səviyyəsində rəqabət apara biləcək ailə bizneslərinin əsası qoyulacaq: ABAD-ın fəaliyyəti resurslardan səmərəli istifadəyə, innovativ yeniliklərin və metodların tətbiqinə əsaslanır. Mərkəz beynəlxalq səviyyədə rəqabət qabiliyyətli məhsulların istehsalını təmin edən ailə bizneslərinin və digər sahibkarlıq fəaliyyəti növlərinin təşkilini təmin edir, məhsulların istehsalı, satışı və xarici bazarlara çıxarılmasında vasitəçi rolunu oynayır. Bununla da mərkəz regional inkişaf proqramına təkanverici qüvvə olmaqla, eyni zamanda, əhalinin məşğulluq səviyyəsinin və rifah halının artırılmasında da əlaqələndirici və nəzarət funksiyalarını həyata keçirir.



Rövnəq Abdullayev vurğuladı ki, ABAD Balakən rayonunda ailə təsərrüfatlarının qurulmasında məsləhət, əlaqələndirmə və prosesə nəzarət funksiyasını həyata keçirəcək. Məqsəd regionların sosial-iqtisadi inkişafına dəstək vermək, regional inkişafda vətəndaş iştirakını təmin etmək, bölgə əhalisinin məşğulluq səviyyəsinin artırılmasına nail olmaqdır. Sonra mütəxəssislər sahibkarları maraqlandıran sualları cavablandırdılar. Bu tədbirdə iştirak edərkən mən hələ ilin əvvəlində Balakəndən hazırladığım yazıların birində qələmə aldığım fikrin nə qədər həqiqət olduğu barədə düşünürdüm. O zaman yazmışdım ki, respublikamızda tərəqqi və inkişafa istiqamətlənmiş bütün layihə və proqramların ən tez tətbiq edildiyi ünvanlardan biri də məhz Balakəndir.

Elə rayon icra hakimiyyətinin başçısı İslam Rzayevlə söhbətimiz əsnasında da xüsusən, bu məsələlər ətrafında danışdıq. İslam müəllim qeyd etdi ki, ölkədə həyata keçirilən ictimai-siyasi, sosial-iqtisadi və ya elmi-mədəni tədbirlərin hər biri Balakən üçün xüsusi önəm kəsb edir və biz o proqram, layihə və ya tədbirlərin hamısının səmərəsini görürük. Özü də yüksək səviyyədə: "Ölkə başçısının "Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 15 aprel 2015-ci il tarixli sərəncamına əsasən, istehsalçılara verilən yardımların məbləği 50 manata, təkrar əkinlərə görə əlavə 50 manata, buğda və çəltik səpininə görə 90 manata çatdırılıb. 2016-cı ildə tütün əkininə görə 90 manat məbləğində yardım verilməsinə başlanılıb, mineral gübrələrə tətbiq olunan güzəştin miqdarı artırılıb ki, bütün bunlar da məhsul istehsalının artırılmasına stimul verib. Əminik ki, noyabrın əvvəlində təqdimatını etdiyimiz ABAD layihəsi bu sahədəki uğurlarımızın daha sürətlə artmasını təmin edəcək".

Məlum oldu ki, hələ ilin əvvəlində, daha dəqiq desək, fevralın 2-də rayon rəhbərinin imzaladığı sərəncamla xüsusi qərargah yaradılmışdı. Məqsəd rayonun kənd təsərrüfatının mövcud potensialının üzə çıxarılması, əkin sahələrinin artırılması, əhalinin məşğulluğunun təmin edilməsi, torpaqlardan istifadənin səmərəliliyinin artırılması sahəsində əhəmiyyətli işlər görülməsi idi. Nəticələr ürəkaçandır. Qərargahın toplantılarında rayonun təbii və əmək ehtiyatlarından maksimum səmərəli istifadə olunması, sahibkarlığın inkişafı və yeni iş yerlərinin yaradılması sahəsində ciddi təhlillər aparılıb, dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrindən istifadənin vəziyyəti dərindən öyrənilib, əkin sahələrinin, eləcə də istehsalın artırılması ilə bağlı hədəf göstəriciləri müəyyən edilib. Görülmüş işlərin nəticəsində bu il 15 min 586 hektar sahə əkin altında olub, onun 1183,5 hektarında payızlıq taxıl, 12444,5 hektarında isə yazlıq bitkilər əkilib. Yəni əkin sahələri əvvəlki ilə nisbətən 10,5 faiz artırılıb.

İslam müəllim danışdı ki, bu il təsərrüfatlarda yoncadan başqa bütün bitkilərin əkinində artım müşahidə olunub. Hətta taxıl əkilən sahələr 2,5 dəfə artırılıb. Taxılın məhsuldarlıq göstəricisi 2015-ci ilə nisbətən 5 sentner artaraq 29,7 sentnerə çatıb. Bu, son illərdə taxılda ən yüksək məhsuldarlıq göstəricisidir. Qeyd olunmalıdır ki, qarğıdalı əkini və məhsul istehsalı sahəsində Balakən rayonu respublikada birinci yerdə qalmaqdadır. Rayonun qarğıdalıçılıq üzrə ixtisaslaşması, bu sahənin inkişaf etdirilməsinə mövcud təbii iqlim şəraitinin imkan verməsi fermerlər tərəfindən dəyərləndirilir və bu sahəyə maraq ildən-ilə artır. Cari ilin əlverişli keçən iqlim şəraiti bol qarğıdalı istehsal etməyə imkan verib. Hazırda sahələrdən 35 min ton qarğıdalı yığılıb və məhsul yığımı davam etdirilir.

Bu il Prezident İlham Əliyevin aqrar sahənin inkişaf etdirilməsi sahəsində verdiyi tapşırıqların icrasının təşkili məqsədilə tütünçülüyün inkişaf etdirilməsi sahəsində zəruri işlər görülüb. Belə ki, son illərdə ilk dəfə olaraq bu il 310 istehsalçı ilə müqavilə bağlanıb, 501 hektar sahədə tütünün "İtiyarpaq" və "Virciniya" növlərinin əkilməsi təmin edilib. Hazırda sahələrdən tütünün toplanması davam edir. Artıq 1100,0 ton yaş, 65,0 ton quru tütün emal müəssisələrinə təhvil verilib. Tütün tədarükü davam etdirilir. Müşahidələr göstərir ki, sahələrdə hələ məhsul vardır. Məqsəd budur ki, sahələrdəki tütün son yarpağınadək toplanılıb təhvil verilməli, tütün istehsalı üçün alınmış kreditlər tam şəkildə dövlətə qaytarılmalıdır.



Xatırladaq ki, Balakəndə fermerin əlini qabardıb üzünü ağardan sahələrdən biri də baramaçılıqdır. Bu il rayonda barama istehsalının artırılması sahəsində zəruri işlər görülüb, baramaçılığın yem bazasının möhkəmləndirilməsi üçün 10000 ədəd tut ağacının əkilməsi təmin olunub. Kümçülərin "Şəki İpək" ASC ilə bağladıqları müqaviləyə əsasən, 70 qutu ipəkqurdu bəslənilib və 3,3 ton barama istehsal edilərək müəssisəyə təhvil verilib.

Məlumdur ki, bu rayonda meyvəçiliyin, xüsusilə, intensiv bağçılığın inkişafına ciddi fikir verilir. İntensiv bağçılıq təsərrüfatının nəzdində ting təsərrüfatının yaradılması da bunu bir daha sübut edir. Son illərdə salınmış və damlama üsulu ilə suvarılan 187 hektar meyvə bağlarında ekoloji təmiz meyvə istehsalına başlanılıb. Bununla yanaşı, qərzəkli meyvələrdən fındıq və qoz bağlarının salınması istiqamətində də ardıcıl işlər aparılır. Katex kəndindəki sahibkarlar tərəfindən xaricdən qoz ağacları gətirilərək 3,5 hektar sahədə əkilib və damlama üsulu ilə suvarma sistemi qurulub. Ölkə başçısının iqtisadiyyatın möhkəmləndirilməsi və ixrac potensialının artırılması ilə bağlı verilmiş tapşırıqların icrası ilə bağlı rayonda fındıq istehsalının artırılması sahəsində zəruri işlər görülür.

Təbii ki, aqrar sektorun davamlı inkişaf edirilməsi üçün ən əsas şərtlərdən biri əkin sahələrinin suvarılmasının təşkilidir. Bu il həmin məqsədlə "Balakən QES" suvarma kanalı bərpa edilib və 100 hektarlarla əkin sahələrinin suvarılmasına imkan yaradılıb. Kəndlərdə mövcud suvarma kanalları təmizlənib, yeni kanallar qazılıb, 25 subartezian quyusu təmir olunub, Meşəşambul kəndində Ulğam çayından əlavə suvarma kanalının çəkilməsi istiqamətində işlər görülüb.

Amma elə çıxmasın ki, bu gün aktual olan kənd təsərrüfatı məsələlərinə daha böyük maraq yaranması rayonun tikinti-quruculuq və abadlıq işlərini ikinci dərəcəli məsələyə çevirib. Qətiyyən elə deyil. Rayonda bu il də abadlaşdırma, tikinti, təmir və quruculuq işləri davam etdirilib, şəhərdə Heydər Əliyev Fondu hesabına tikilən 100 yerlik körpələr evi-uşaq bağçası, əsaslı təmir olunan internat məktəbi və rayon polis şöbəsinin inzibati binası istifadəyə verilib. Kənd təsərrüfatı idarəsinin və Mazımçay buraxılış məntəqəsi yaxınlığında gömrük terminalının tikintisi başa çatdırılıb. Səhiyyə və mədəniyyət obyektlərində büdcə vəsaiti hesabına əsaslı və cari təmir işləri aparılıb, mədəniyyət mərkəzində, tarix-diyarşünaslıq muzeyində, mərkəzi kitabxanada, Hənifə kənd uşaq bağçası–körpələr-evində təmir işləri yekunlaşdırılıb. Şəhər 2 saylı uşaq bağçası-körpələr evində, RİH-nin inzibati binasında, Z.Əliyeva küçəsi, 56 saylı yaşayış evində də cari ildə təmir işləri aparılıb. Bundan başqa, Tülü kənd Folklor evinin və mərkəzi rayon xəstəxanasının təmirinə başlanılıb.

Təbii ki, xidmət sahələri də daim diqqət mərkəzindədir. Məsələn, əhalinin qaz, su və istiliklə təchizatının yaxşılaşdırılması sahəsində xətlərdə zəruri təmir işləri aparılır, yaranmış problemlər qısa müddətdə aradan qaldırılır. Payızqış mövsümünə hazırlıqla əlaqədar mövcud qazanxanaların qaz və işıq xətləri yoxlamadan keçirilib, istilik xətləri təmir edilib. Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması sahəsində 60 transformator cari, 29 transformator isə əsaslı təmir edilib, yaşayış məntəqələrində 10 yeni transformator məntəqəsi quraşdırılıb. Yeri gəlmişkən, bir dəfə Balakəndən hazırladığım qəzet materialında yazmışdım ki, elə bil, işığa düşüb bu şəhər. Məhz elə ona görə də indi Balakəni "işıqlandıranların" fəaliyyəti barədə əhatəli söz açmıram. Çünki bu dağlar diyarının işıq məsələsi, sözün həqiqi mənasında, ayrıca bir yazının mövzusudur. Çünki bu gün yuxarıda haqqında geniş söz açdığımız aqrar sektorun da, tikinti-abadlıq işlərinin də, istənilən sosial tədbirin də, xüsusən, turizmin inkişaf etdirilməsinin də təməlində məhz elektrik enerjisi dayanır. "Balakəndə bu məsələ yüksək səviyyədə öz həllini tapır" – deməklə, bu barədəki fikirlərimizi başa çatdırırıq. Amma hələlik. Belə ki, Balakəni işıqlandıranlar barədə ayrıca bir yazı hazırlamaq barədə düşünürəm.

Sonda qeyd edim ki, dünyanın meteoroloq alimlərinin hələ bir neçə ay əvvəl verdikləri proqnozda göstərilirdi ki, bu il qış həm tez gələcək, həm də sərt keçəcək. Sərtliyini bilmirəm, amma tez gəlməsi barədə deyilənlər özünü doğruldur. Yəni dağlıq rayonlarımızda artıq tez-tez qar yağır. Amma qış və qarla bağlı proqnozlar özünü doğrultsa da, " Balakənə qar düşən kimi turistlərin ayağı buradan kəsiləcək", – deyə proqnoz verənlərin sözü yalana çıxır. Çünki həmin proqnozu verənlər əvvəlki illərə istinad edərək danışırdılar. İndi isə elə deyil. Balakənin ilin bütün fəsillərində istənilən qədər turisti qəbul etmək və yüksək səviyyədə yola salmaq imkanı vardır. İnanmırsınız? Gəlib, baxıb şahid ola bilərsiniz…

…Bu günlərdə Balakəndə gözəl bir tədbir – Məhsul bayramı keçirildi. Bu torpaqda ləziz, dadlı nə yetişirsə, süfrələrə düzülmüşdü. Hər yerdən, yaxından, uzaqdan qonaqlar gəlmişdi. Balakən nemətlərindən dadıb ləzzət aldılar. Balakənin balından dadan qonağın dediyi sözlərə əlavə etmədən bu yazıya nöqtə qoyuram: "Arılar təkcə çiçəklərin yox, elə bil bu yerin insanlarının da şirinliyini buna qatıblar."

*İlqar HƏSƏNOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*